# Azərbaycan Respublikası Təhsil Nazirliyi
# Bakı İdarəetmə və Texnologiya kolleci

## “Geyimlərin stil tarixi”

fənninin

# PROQRAMI

040570-“Geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsi”

040569-“Tikiş məmulatlarının texnologiyası”

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı İdarəetmə və Texnologiya Kollecinin Metodiki şurasının 15 sentyabr 2017-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
(Protokol № 1)

**Bakı 2017**

**Tərtib etdi:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin
“Zərgərlik, geyimlərin modelləşdirilməsi və
konstruksiya edilməsi” fənn birləşmə sədri

Bağırova Nazirə Əhməd

**Redaktor:**

Bakı İdarəetmə və Texnologiya Kolleci
Metod şuranın sədri

Nəsirov Firuddin Novruz

**Rəy verənlər:**

Bakı İdarəetmə və Texnologiya
Kollecinin müəllimi

1.Cabbarova Ülviyyə Natiq

Azərbaycan Dövlət İqtisad Universiteti
“Dizayn” kafedrasının müdiri s.ü.f.d.

2.Məmmədova Lalə

# İZAHAT VƏRƏQİ

**Fənnin tədrisinə ayrılan saatların miqdarı: 60 saat**

“Geyimlərin stil tarixi” fənninin əsas məqsədi tələbələrə geyimlərin yaranması səbəbləri, tarixi şəraiti, müxtəlif dövrlərdə xalqların geyimləri, mədəniyyəti və incəsənəti haqqında məlumat vermək, onları müasir dövrün geyimləri və incəsənəti ilə əlaqələndirməkdir.

Proqramda ibtidai icma, qədim dövr, orta əsrlər, Yaxın Şərq, Avropa, Asiya, keçmiş SSRİ, Qafqaz xalqlarının geyimlərinin, incəsənət və mədəniyyətinin öyrənilməsinə yer ayrılır. Habelə müxtəlif xalqların geyimlərinə, incəsənətinə, milli mədəniyyətlərinə, bu sahədə onların oxşar cəhətlərinə, ümumbəşəri dəyərlərinin araşdırılmasına diqqət yetirilir.

Mövzularda geyimlərin əhatəli şəkildə öyrənilməsi nəzərdə tutulur: geyimlər üçün istifadə edilən materiallar, ayaqqabılar, başörtükləri, əlavə aksessuarlar, bər-bəzək əşyaları və s., kostyumlarda istifadə olunan əşyalara, həmçinin memarlığa və tətbiqi incəsənətə diqqət yetirilir.Geyimlərin yaranmasında istifadə edilən materiallar, biçim xüsusiyyətləri, rəng seçimləri araşdırılır və müasir geyimlərin yaradılmasında yaradıcılıq mənbəyi kimi istifadə edilir.

Fənnin daha yaxşı mənimsənilməsi üçün kostyumun yaradıcılıq mənbələrini öyrənmək, tələbələrə estetik gözəllik anlayışını, tətbiqi incəsənətdə gözəllik idealını duymağı və fərqləndirməyi başa salmaq, tələbələrin estetik və bədii zövqünü inkişaf etdirmək məqsədilə onları şəhərin memarlıq inciləri ilə tanış etmək, muzeylərə, sərgilərə ekskursiyalar təşkil etmək, geyim modellərinin baxışlarında iştirak etmək məsləhət görülür.

Tələbələrlə nəzəri materialların öyrənilməsi və möhkəmləndirilməsi məqsədilə, müxtəlif xalqların geyim eskizlərini işləmək, maketləri hazırlamaq tapşırıqlarını vermək məqsədəuyğundur.

## MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | Mövzuların adı | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1 | Giriş. Fənnin məzmunu | 2 | 2 |
| 2 | Kostyumun konstruksiyasının əmələ gəlmə tarixi | 2 | 2 |
| 3 | Moda tarixi və onun xüsusiyyətləri | 2 | 2 |
| 4 | Qədim Misir incəsənəti və geyimləri | 2 | 2 |
| 5 | Qədim Yunan incəsənəti və geyimi | 2 | 2 |
| 6 | Qədim Roma incəsənəti və geyimi | 2 | 2 |
| 7 | Hindistan incəsənəti və geyimləri | 2 | 2 |
| 8 | Çin incəsənəti və geyimi | 2 | 2 |
| 9 | Yapon incəsənəti və geyimləri | 2 | 2 |
| 10 | Ərəb incəsənəti və geyimi | 2 | 2 |
| 11 | Türkiyə incəsənəti və geyimi | 2 | 2 |
| 12 | Rus incəsənəti v əgeyimi | 2 | 2 |
| 13 | Qədim Azərbaycan incəsənəti və geyimləri | 2 | 2 |
| 14 | Geyimdə stil və imic | 2 | 2 |
| 15 | Uşaq geyimlərinin inkişaf tarixi | 2 | 2 |
| **Cəmi: 60 saat** | | | |

## MÖVZULAR VƏ ONLARIN İZAHI

***Mövzu 1*. Giriş. Fənnin məzmunu - 4 saat**

Ayrı-ayrı xalqların geyimlərinin əmələgəlməsi, həmçinin Azərbaycanın milli geyimlərinin materialları və müasir geyim nümunələri. “Geyimlərin stil tarixi” fənninin məqsədi və məzmunu. Fənnin tədris planına daxil olmuş başqa fənnlərlə əlaqəsi. Təsviri sənətlərin növ və janrları. “Geyim”, “Kostyum”, “Moda”, “Bədii stil”, “Bədii obraz” anlayışları nədir?

***Mövzu 2.* Kostyumun konstruksiyasının əmələ gəlmə tarixi- 4 saat**

Kostyumun forma və konstruksiyasının funksional məqsədəuyğunluğu. Xalq sənətkarları, milli ənənələri, yenilikləri, milli kostyum nümunələri, kostyumun formasının və elementlərinin xətti, onun insan fiquruna uyğun olaraq hissələrə mütənasib bölünməsi.

Təsviri fəaliyyətin yaranması, ibtidai sənətin dövrləri, ibtidai insanın gözəllik anlayışı və bu anlayışın geyimdə ifadə edilməsi. Bəzəklərin tatirovkası və kosmetikanın geyimdə vəhdəti. Geyimin yaranması, geyimin parça, iqlim və fəaliyyət növü ilə əlaqəsi.

***Mövzu 3.* Moda tarixi və onun xüsusiyyətləri - 4 saat**

Modanın insanın daimi tələbatları ilə əlaqəsi. XVIII əsrin sonunda mədəniyyətin fenomeni olan modanın öyrənilməsi.

XIX-XX əsrlərdə moda tədqiqatçılarının modanın əmələ gəlməsi və inkişafı səbəblərinin öyrənilməsi.Modanın kapitalizmin bazar iqtisadiyyatı nöqteyi-nəzərindən öyrənilməsi.

***Mövzu 4.* Qədim Misir incəsənəti və geyimləri - 4 saat**

Qədim Misir incəsənətinin formalaşmasında tarixi, iqtisadi və sosial şəraitin rolu. Qədim misirlilərin dini və mifoloji təsəvvürləri. Tətbiqi və dekorativ sənət, rəngkarlıq, heykəltaraşlıq və memarlıq abidələrinin əsas cəhətlərini saxlamaqla müxtəlif dövr incəsənətinin vacib xüsusiyyətləri.

Qədim Misir geyimlərinin yaranma şəraiti. Qədim Misirin müxtəlif dövrlərdə yaradılmış təsviri sənət əsərləri əsasında gözəlliyin estetik ideal anlayışı.

Kişi və qadın geyimlərinin əsas formaları. Bu formaların bədən quruluşu, parça və məşğuliyyət növü və təbii şəraitlə əlaqəsi. Qadın və kişi geyimlərinin növləri: sxenti, önlük, kalaziris, çiyin örtüyü.

Qədim Misir geyimlərinin yaradılmasında kostyumun, saç yığımının, ayaqqabı və baş geyiminin, əlavələrin və bəzəklərin rolu.

***Mövzu 5*. Qədim Yunan incəsənəti və geyimi - 4 saat**

Antik mədəniyyətin ümumi xarakteristikası. Yunan bölgələrinin (polis) inkişafının ictimai-tarixi və coğrafi şəraitləri. Yunan mədəniyyətinin formalaşmasının əsas prinsipləri: həndəsi stildən uzaqlaşma, yeni bədii formaların yaradılması və həyat ritmi ilə zənginləşməsi. Yunan incəsənətinin əsas növlərinin qurulması və inkişafı.Memarlıq, heykəltaraşlıq, incəsənət yönümlü peşələr.

Qədim yunan geyimi. Estetik idealın kostyumun yaranmasına təsiri. Geyimin insan bədəninin cizgilərinə uyğunlaşdırılması və proporsialarının müəyyən edilməsi. Qədim yunanların geyimlərinin əsas növləri: xiton, peppos, qimatiya, xamida. Parçalar və onların tərtibatı. Kişi və qadın kostyumlarının hazırlanma xüsusiyyətləri. Qədim Yunan kişi və qadın geyiminin yaradılmasında saç yığımının, ayaqqabının, baş geyiminin, əlavələrin estetik dəyərləri.

***Mövzu 6*. Qədim Roma incəsənəti və geyimi - 4 saat**

Qədim Roma incəsənət növlərinin yaranmasının tarixi şəraiti, onun dövrülüyü. Qədim Roma imperiyasının incəsənəti antik incəsənətin inkişafında yeni bir mərhələdir. Qədim romalıların memarlıq sahəsində əsas nailiyyətləri, incəsənətin müxtəlif növlərinin qarşılıqlı əlaqəsi və bu əlaqələrin mədəni abidələrin yaranmasında rolu. Qədim Roma incəsənətinin əsas xüsusiyyətinin ideallığa deyil xarakterik cəhətlərə meyili. Roman monumental heykəltaraşlığı, Romada Yunan mədəniyyətlərinin oxşarlığı və fərqləri.

Qədim Roma geyimləri. İnsan gözəlliyinin estetik idealı və onun geyimdə ifadəsinin üsulları. Kostyumun insan bədəninə uyarlığı, geyim vasitəsi ilə bədənin əzəmətinin və gözəlliyinin ön plana çəkilməsi. İstifadə olunan parçalar.

Kişi geyimlərinin əsas növləri: tunika, plaş və s., kişi geyimlərində sosial fərqlər. Müxtəlif təbəqələrə məxsus geyimlərin formalaşmasında əlavələrin, saç düzümünün, ayaqqabının və rənglərin rolu.

Qadın geyimlərinin əsas növləri: tunika, stola, plaş, örtük. Saç düzümünün, əlavələrinin, bəzəklərin, kosmetikanın o dövrün geyimlərində və gözəllik idealının yaradılmasında rolu.

***Mövzu 7*. Hindistan incəsənəti və geyimləri - 4 saat**

Hindistan sosial-iqtisadi inkişafının xüsüsusiyyətləri. Hind incəsənətinin özünəməxsusluğu: ilk dövr, mədəni axarların davamiyyəti və dəyişkənliyi, incəsənətin xalq mifologiyası və dini cərəyanlarla əlaqəsi.

Hindistan geyimləri: Hindistanın mədəniyyət və incəsnətində gözəlliyin estetik idealının formalaşması. Hind geyiminin xarakterik xüsusiyyətləri: forma, biçim, parça, rəng. Büzmələrin rolu.

Kişi geyimləri: dxoti, çalma, plaş, tuman, köynək, kaftan.

Qadın geyimləri: sarı, xoli (qısa köynək), qudsira və s. Qadın geyimlərində bəzəklərin (sayı və təyinatı), əlavələrin və ayaqqabının rolu.

***Mövzu 8.* Çin incəsənəti və geyimi - 4 saat**

Çinin sosial iqtisadi inkişafının xüsusiyyətləri. Çin incəsənətinin fərdiliyi: ənənələr, mədəniyyət və ümumbəşərilik.

Müxtəlif dövrlərin incəsənəti Tan (VI-IX) və Sun (X-XII) əsrlər dövrlərində. Çin incəsənətinin yüksəlişi. Rəngarlıq texnikası obrazlarının simvolikası. Çin memarlığının tipik siluetləri-çox mərtəbəli “hava” Qülləsi və bir neçə qatlı tavanı olan saray tikilişi.

Çinin geyimi. Gözəlliyin estetik inkişafı. Gözəlliyin forma və növləri və onların sinfi fərdilikləri. Çin ipək parçaları və onların ornamentləri. Geyim vasitəsi ilə gözəlliyin estetik idealının yaradılmasında baş geyimlərinin, saç düzümünün, kosmetika, bəzək və ayaqqabıların rolu.

***Mövzu 9*. Yapon incəsənəti və geyimləri - 4 saat**

Yaponiyanın iqtisadi-sosial inkişafı. Yapon incəsənətinin fərdiliyi, Çin bədii ənənələrinin və Yapon incəsənətində dünyanı dərk etmək xüsusiyyətlərinin qarşılıqlı sintezi.

Yapon incəsənətində milli rəngarlığın cizgiləri, dekorativlik, lakonizm, siluetlərdə incə zövqlülük.

Yaponların məbəd və memarlığına buddizm dininin və sinta yerli din cərəyanının təsiri.

Tətbiqi incəsənətin çiçəklənməsi.

Yapon geyimləri. Gözəlliyin estetik idealı. Parçaların fakturası, ornamentləri, özünəməxsusluğu, rəng çalarları simvolikası. Yapon geyiminin kontruktiv ve dekorativ xüsusiyyətləri.

Qadın və kişi geyimləri: estetik geyim vasitəsi ilə gözəlliyin estetik idealı.

***Mövzu 10*. Ərəb incəsənəti və geyimi - 4 saat**

Ərəb ölkələrinin sosial-iqtisadi inkişafı. Ərəb xalqlarının dağınıq və köçəri tayfalarının birləşməsi nəticəsində böyük ərəb dövlətinin əsasının qoyulması. Böyük Ərəb dövləti VI-X əsrlərdə.

Ərəb mədəniyyətində digər xalqların mədəniyyətinin izləri.

Ərəb geyimi. Ərəblərin gözəllik anlayışı. Ərəb toxuculuğu: parça, xalça və s. kişi geyimləri: abbas, şalvar, onların konstruktiv xüsusiyyətləri.

Qadın geyimlərində bəzəklərin rolu.

***Mövzu 11.* Türkiyənin incəsənəti və geyimi - 4 saat**

Qədim türklər. Osmanlı imperiyasının yaranması və inkişafının süqutu. Avropa və uzaq şərq xalqlarının mədəniyyətində, məişət və memarlığında türk izləri. Bizans mədəniyyəti və memarlığı. İslam dini və Türkiyə miniatür sənəti və rəngarlıq.

Türk geyimi. Türk xalqlarının həyat tərzi və onun kişi və qadın geyimlərində əksi. Kişi və qadın geyimində oxşarlıqlar: şalvar, qemlək, yelək, kuşaq və geyimləri. Türk geyimlərində müxtəlif bəzək əşyaları, zəriflik və ciddilik.

***Mövzu 12.* Rus incəsənəti və geyimi - 4 saat**

Slavyan mədəniyyəti. Kiyev - Rusiyanın XI əsr mədəniyyəti. Kilsələrin bədii tərtibatı. Moskva Kremlinin tikintisi. Rus mədəniyyətinin özünəməxsusluğu. Rus-zadəgan mədəniyyəti. Memarlıq, rəngarlıq, heykəltaraşlıq, rəngarlığın janrlara bölünməsi. Sankt-Peterburq memarlığı: XIX əsrin sonu, XX əsrin əvvəllərində mədəniyyətin və incəsənətin inkişafı.

Rus geyimləri.

Gözəlliyin estetik idealı. Kostyumun əsas kompozisiya məxsusluğu, istifadə olunan parçalar. Qadın və kişi geyimlərinin əsas formaları: rubaxa, koftan, şuba,

zapona. Baş geyimləri, saç forması, ayaqqabı, bəzəklər və əlavələr. Boyar kostyumlarında müxtəlif əlavələrin yaranması. Çar və din xadimlərinin geyimləri.

Tacirlərin ənənəvi geyimlərdən imtinası və dəbdə olan geyimlərə meyl etməsi.

Milli geyimlərin biçim xüsusiyyətləri, istifadə edilən parçalar və rəng.

***Mövzu 13*. Qədim Azərbaycan incəsənəti və geyimləri - 4 saat**

Tarixi keçmişi, ərazisi, memarlığı, Qız qalası, Şirvanşahlar sarayı, Şəki Xan sarayı. Xalçaçılıq, milli ornamentlər. Milli ornamentlərin geyimlərdə rəng seçimi, istifadə olunan parçalar, bəzək əşyaları. Milli geyimlərin yaradılmasında biçim fərdilikləri. Baş örtükləri, ayaqqabılar, əlavələr. Müasir geyimlərdə milli geyimlərin elementləri.

Azərbaycan geyimləri: Milli geyimlərimizin Qafqaz xalqlarının geyimləri ilə bağlılığı. Türk və Fars xalqlarının geyimlərinin milli geyimlərimizdə elementləri. Kişi geyimlərinin konstruktiv və dekorativ fərdlikləri. Parçalar, dərilər, yay və qış geyimləri, ayaqqabılar. Müxtəlif sosial təbəqələrin geyimləri. Qadın geyimlərinin fərqli cəhətləri: bəzəklər, ornamentlər, rəng çalarları, mövsüm geyimləri, saç düzümü, baş geyimləri – şal, çadra, kalağayı. Gündəlik geyimlər, mərasim geyimləri, toy geyimləri. İstifadə edilən parçalar: ipək, yun, məxmər, atlas. Kəmərlər, boyunbağılar, üzük və sırğalar. Müxtəlif sosial təbəqələrdən olan qadınların geyimlərində fərqli və ümumi cəhətləri.

Azərbaycanın müxtəlif bölgələrində xarakterik olan kişi və qadın geyimləri. Onların oxşar və fərqli cəhətləri (Şəki-Şirvan, Mil-Muğan, Qarabağ, Talış, Bakı-Abşeron).

***Mövzu 14.* Geyimdə stil və imic - 4 saat**

Geyimdə stil və imicin yaradılması, geyimin klassik imici, geyimdə eleqantlıq stili, geyimdə ənənəvi imic, geyimdə idman stili, geyimdə romantik stil, geyimdə parlaq imic.

***Mövzu 15*. Uşaq geyimlərinin inkişaf tarixi - 4 saat**

XIX-XX əsrlərdə uşaq geyimlərinin forma təkamülü, uşaq kostyumunun inkişaf mərhələləri, uşaq geyimlərinin yaş qruplarına bölünməsi.

Baxça qrupuna aid olan uşaqların geyimləri, 3-6 yaşınadək olan məktəbəqədər uşaq qrupunun geyimləri, 7-14 yaşınadək olan məktəblilərin geyimləri, 12-15 yaşlarda olan məktəbli qrupunun geyimləri, 15-17 yaşlı yeniyetmələrin geyimləri

## ƏDƏBİYYAT


1. B.S.Paşayev, Y.Ç.Ağamalıyeva, L.H.Məmmədova "Moda və kostyumun tarixi", Bakı 2009;
2. Н.М.Каминская. История костюма. М.-1977 г;
3. М.Н.Мерцалова. История костюма. М.-1972 г;
4. Е.Киреева. История костюма. М.-1976 г;
5. Всеобщая история искусств. Тт-1-VI М. 1956-1966;
6. Д.В.Сарабъянова. История русского советского искусства. М. В. Ш. , 1979;
7. Р.Захаржевская. Костюм для сцены. М. 1973-1974;
8. О.Сухарева. Костюм народов Средней Азии. М.1979;
9. R.Ə. Əzizbəyova. Azərbaycanın milli geyimləri. M.1972.